

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 241 (24.378)

*27 dekabr 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlib.

Sankt-Peterburq şəhərinin "Pulkovo-1" hava limanında dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov və digər rəsmi şəxslər qarşıladılar.

***

Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı bir daha məmnunluqla qeyd edildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi. Yüksək səviyyəli görüşlərin və təmasların əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Dövlət başçıları əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək gələcək təmaslar və əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi apardılar.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Yekaterina sarayı" ("Екатерининский дворец") ilə tanış oldular.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Böyük Peterhof Sarayı" ("Большой петергофский дворец") ilə tanış oldular.

***

Dekabrın 26-da Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib.

**AZƏRTAC**

## Naxçıvanda şəhid övladlarına bayram hədiyyələri təqdim edilib





Dekabrın 26-da Naxçıvan Dövlət Milli Dram Teatrında şəhid övladları ilə bayram görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli uşaqları 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib. Səlahiyyətli nümayəndə şəhid övladlarına Prezident cənab İlham Əliyevin salamlarını çatdırıb, dövlət başçımızın uşaqlara sevgisindən, xüsusi qayğısından bəhs edib.

Sonra Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi Xanımana Əlibəylinin əsəri əsasında səhnələşdirilmiş "Şaxta babanı tapaq" tamaşasını təqdim edib. Səlahiyyətli nümayəndə uşaqlarla birgə tamaşanı izləyib.

Tamaşanın sonunda uşaqlar səhnəyə dəvət olunub, 45 şəhid övladına Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası adından hədiyyələr verilib. Səlahiyyətli nümayəndə Fuad Nəcəfli və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev uşaqlara məktəbli ləvazimatları və Yeni il hədiyyələri təqdim edib, onlarla birgə xatirə fotosu çəkdiriblər.





Fuad Nəcəfli sonda teatrın kollektivi ilə görüşüb, tamaşanın təqdimatına görə təşəkkür edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, rejissoru və musiqi tərtibatçısı Mirqabil Əkbərov, quruluşçu rəssamı Səyyad Bayramov olan səhnə həllində teatrın istedadlı aktyorları Əməkdar artist Behruz Haxverdiyev, Anar Eyvazov, gənc aktyorlardan Səkinə Məmmədova, Şölə Alışova, Uğur Nəsirli və Mehri Nəbiyeva canlandırdıqları obrazlarla uşaqlara maraqlı və əyləncəli dəqiqələr bəxş ediblər.

**"Şərq qapısı"**







## "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin ləğv edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsi ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 26 dekabr 2023-cü il*

## Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının ləğv edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş qurumun ləğv edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 26 dekabr 2023-cü il*

## Naxçıvanda "Snowfest – qış festivalı" start götürüb








Dekabrın 25-də Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində hər kəsin böyük həyəcanla gözlədiyi "Snowfest – qış festivalı" başlayıb. Ötən illərdən fərqli olaraq yeni dizaynda və rəngarəng dekorlarla bəzədilən şəhərin ən böyük yolkasının ətrafında baş tutan festivalın ilk günü insan izdihamı ilə müşayiət olunub. Minlərlə insanın bir araya toplaşmasına səbəb Xalq artisti Aygün Kazımovanın özəl proqramla pərəstişkarlarının görüşünə gəlməsi və əsl bayram ab-havası yaşatması olub.





Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı Naxçıvanda "Snowfest – qış festivalı" sayəsində yüksək coşqu ilə qeyd edilir. Yanvarın 7-dək davam edəcək festivalın növbəti günlərində digər populyar ifaçıların iştirakı ilə maraqlı konsert proqramı, əyləncəli şoular, tamaşalar təqdim olunacaq. Eyni zamanda festivalın keçirildiyi ərazidə, "Snowfest"in ab-havasına uyğun bəzədilən 30-a yaxın köşkdə iştirakçılara iaşə xidməti göstəriləcək.

**"Şərq qapısı"**

## "Yaşıl dünya naminə həmrəylik"

### *Məqsəd sağlam həyat konsepsiyasının yaradılmasıdır*




Bu gün Azərbaycan dünyada gedən iqlim dəyişikliyi proseslərinə ən həssas şəkildə yanaşan azsaylı ölkələrdəndir. Ona görə azsaylı deyirik ki, ölkəmiz qlobal səviyyədə müzakirə edilən ekosistem problemlərinə hər zaman şifahi çağırışlarla yox, əməli yanaşması ilə seçilib. Təsadüfi deyil ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair 5 milli prioritetindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirildiyi rəsmi səviyyədə qəbul olunub. Həmin prioritetə uyğun olaraq ölkəmizdə artıq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, həmçinin dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu baxımdan dekabrın 25-də Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi təsadüfi sayılmamalıdır.

Sərəncamda Azərbaycanın beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi bildirilir, eyni zamanda bir sıra hədəflərin müəyyənləşdirildiyi diqqətə çatdırılır. Məsələn, bu sənəddə Azərbaycanın baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını, bundan başqa, elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəf kimi götürdüyü, işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurun, eləcə də Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji zonası" elan olunduğu bir daha xatırladılıb.

Xüsusi olaraq vurğulamalıyıq ki, Azərbaycan son 30 ildə məlum münaqişə səbəbindən ekosisteminin mühüm bir hissəsi dağıdılmış, ətraf mühitinin müxtəlif çirklənmələrə məruz qaldığı azsaylı ölkələrdəndir. 3 il bundan əvvəl torpaqlarımız işğaldan azad olunsa da, həmin ərazilərdə yayılmış mina terroru hələ də bu sistemi təhdid edir. Üstəlik, işğal dövründə həmin ərazilərdə su mənbələrindən kortəbii istifadə, meşə və qiymətli ağac növlərinin kütləvi məhv edilməsi, fauna-flora disbalansının yaranması ölkəmizə yüz milyonlarla dollar həcmində ekoloji ziyan vurub. Amma bütün bunlara baxmayaraq, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasından sonra Azərbaycan Prezidenti tərəfindən bu bölgələrin dirçəldilməsi üçün çox mühüm və innovativ konsepsiyalar ortaya qoyulub. Yaşayış məntəqələrinin "ağıllı şəhər", "ağıllı kənd" layihələri üzrə yenidən qurulması, təbiət ərazilərinin sürətli və ən yüksək səviyyədə bərpa olunması, eləcə də getdikcə artan enerji tələbatının daha çox "yaşıl enerji" mənbələrindən istifadə olunaraq təmin edilməsi qlobal iqlim dəyişikliyinə verilən ən böyük töhfədir. Sadalanan layihələr təkcə işğaldan azad edilmiş ərazilərdə deyil, ümumilikdə, ölkənin digər regionlarında da tətbiq edilir. Məqsəd qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə yer verilməsi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviq edilməsinin qəti vəzifə olaraq müəyyənləşdirilməsidir.

Yuxarıda adıçəkilən Sərəncamda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsinin də ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırılıb. Qeyd edək ki, beynəlxalq birliyin belə bir qlobal tədbirə ev sahibliyini məhz Azərbaycan dövlətinə etibar etməsi ölkəmizin bu sahədə zəngin təcrübəyə malik olmasından, eyni zamanda BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü zamanı 155 ölkənin, Qoşulmama Hərəkatına sədrliyi zamanı isə 120 ölkənin dəstəyini qazanmasından və etimadı tam doğrultmasından, Prezident cənab İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslərin beynəlxalq ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmasından irəli gəlir. Və belə bir mötəbər tədbirin postsovet məkanında ilk dəfə Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq uğuru, dünyada güclənən mövqeyi, artan nüfuzunun göstəricisidir.

Bütün bunları ümumiləşdirərək deyə bilərik ki, 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi təkcə ölkəmiz üçün deyil, bütün dünya üçün qlobal çağırışdır. Məqsəd gələcəkdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklərin azaldılması, sağlam həyat konsepsiyasının yaradılmasıdır.

**Səbuhi HƏSƏNOV**

*Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.*

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq

## Mən Vətəndə deyiləm, Vətən mənim qəlbimdə



Müsahibim tədqiqatçı-türkoloq, yazar, Sankt-Peterburq Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Azərbaycan dili müəllimi ***Şahnaz Kamal**dır*. Filologiya fakültəsinin bakalavr və magistratura pilləsini Bakı Dövlət Universitetində fərqlənmə diplomu ilə bitirib. Aspirantura təhsilini Sankt-Peterburq Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin türkologiya bölməsində alıb. Hazırda Sankt-Peterburq Dövlət Universitetində dərs deyir. Uzun illərdir, ailəsilə birlikdə Sankt-Peterburqda yaşayır. Azərbaycanla bağlı bir neçə kitab nəşr etdirib. Onlarla elmi, araşdırma və publisistik məqalələrin, həm də hekayələr və nağıllar kitabının müəllifidir.

***– Sizi Azərbaycanı, Azərbaycançılığı Vətəndən kənarda təbliğ edən, onu qoruyan, milli dəyərlərə önəm verən Azərbaycan qadını kimi tanıyırıq. Sankt- Peterburq Dövlət Universitetində Azərbaycan dilini tədris edən, bəlkə də, yeganə insansınız. Ana dilini Vətəndən uzaqda tədris və təbliğ etmək necə hissdir?***

– Xoş və qürurverici hissdir. Dilimizin gözəlliyini başqalarına öyrətdikcə daha dərindən duyur insan. Mən həm universitetdə Azərbaycan dilini tədris edirəm, həm də Rusiyada və digər ölkələrdə yaşayan rusdilli insanlara Azərbaycan dili dərsləri verirəm.

***– Sözsüz ki, Sankt-Peterburqda çox sayda azərbaycanlı yaşayır və onların dilimizi öyrənməsi üçün görülən işlərdə sizin də əməyiniz var. Bildiyimə görə, Mayakovski adına kütləvi kitabxanada danışıq klubunuz var. Orada nə kimi işlər görürsünüz?***

– On ilə yaxındır, V.V.Mayakovski adına kütləvi kitabxana ilə əməkdaşlıq edirəm. Bu böyük mədəniyyət müəssisəsi ilə ilk tanışlığım 2014-cü ildə olub. O zaman kitabxananın “Xarici ədəbiyyat” bölümündə azərbaycanca cəmi bir neçə kitab vardı. Mən bölmənin müdiri İrina Sergeyevna Toçilkina ilə görüşdüm və kitab hədiyyə etmək istədiyimi bildirdim. İrina Sergeyevna təklifimi məmnuniyyətlə qəbul etdi. Bir neçə il kitabxanaya kitablar hədiyyə etdim və onlar kataloqa salınıb rəflərə qoyuldu. Sonrakı dönəmdə kitabxana özü Azərbaycandan kitab sifariş etməyə başladı. İndi orada yüzdən artıq Azərbaycan dilində kitab var. 2014-cü ildən mən həm də kitabxanada Azərbaycanla bağlı tədbirlər keçirməyə, mühazirələr oxumağa başladım. Mühazirələr, əsasən, Azərbaycan ədəbiyyatı, dili, mədəniyyəti, mətbəxi və sair mövzularla bağlı olur. Novruz bayramını, həmrəylik gününü, Yeni ili qeyd edirik. Bəzən filmə baxırıq. 2015-ci ildə “Azərbaycan kinosu həftəsi” keçirdik. Bir həftə ərzində rus dilində subtitrlərlə azərbaycanca filmlər nümayiş etdirdik.

2017-ci ildə kitabxanada Şərq mədəniyyəti bölümü fəaliyyətə başladı. Bu bölümün müdiri Mariya



Aleksandrovna Zuyeva ilə birlikdə onlarla tədbir, elmi konfrans, görüşlər keçirmişik. 2021-ci ildə Türkiyənin Qafqaz Universiteti ilə birlikdə təşkil etdiyimiz Əzizə Cəfərzadənin 100 illiyinə həsr olunmuş elmi konfrans buna misal ola bilər. Onu da deyim ki, beş ildir, bu kitabxananın nəzdində fəaliyyət göstərən danışıq klubum var. Klub pandemiyaya qədər canlı idi. O dönəmdə və sonra onlayn fəaliyyətə keçdik. İndi isə qarışıqdır, bəzən “Zoom” tətbiqi üzərindən olur, bəzən də kitabxananın özündə canlı keçirik. Mən bu sahədə əlimdən gələni etməyə çalışıram.

***– Başqa millətlərin Azərbaycan dilinə marağı necədir?***

– Mən rusdillilərə Azərbaycan dilini öyrədirəm. Onlar da, əsasən, ya ruslar, ya Rusiyada böyüyən azərbaycanlılar olurlar. Bəzən, sadəcə, maraq üçün, ya da iş üçün dilimizi öyrənənlər də olur. Amma onların sayı azdır. Uşaqlar dilimizi öyrənəndə lap çox şad oluram. Onlar Rusiyada və digər ölkələrdə yaşayan azərbaycanlı uşaqlarıdır. Evdə rusca danışıldığından, Azərbaycan dilini ya heç bilmirlər, ya da pis bilirlər. Bunu nəzərə alaraq, 2021-ci ildə Sankt-Peterburqda Gülşən Həbibova ilə birlikdə “Uşaqlar üçün Azərbaycan dili” adlı bir kitab nəşr etdirdik. Deyim ki, çox yaxşı qarşılandı. Tirajı bitmək üzrədir.

Dərs dedikcə, uşaqlar üçün nağıllar da yazmağa başlamışdım. 2021-ci ildə Bakıda “Xallı” adlı nağıl kitabım nəşr olundu. O kitabın Peterburqda fəaliyyət göstərən, ən böyük kitab mağazası olan “Kitablar Evi”ndə satışını həyata keçirdim. Çünki Azərbaycan dilində olan nağıllara ehtiyac var. O kitabın da tirajı bitib. Artıq başqa bir nağıl kitabım da nəşrə hazırlanır.

Bundan əlavə, rusdilli uşaqlar üçün yeni bir Azərbaycan dili öyrədəcək kitabın üzərində işləyirəm.

***– Sankt-Peterburqda necə, nəşr etdirdiyiniz kitablar varmı?***

– Sankt-Peterburqda nəşr etdirdiyim ilk kitab Azərbaycan Respublikasının 100 illiyinə həsr olunmuş “Azərbaycan Respublikası 100” adlı elmi məqalələr toplusudur. Daha sonra 2022-ci ildə Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş elmi məqalələr toplusu, 2023-cü ildə isə “Azərbaycan nəşri antalogiyası”nın birinci hissəsini nəşr etdirdim. Bu istiqamətdə fəaliyyətim davam edəcək. Artıq bəzi addımlar atılıb. Böyüklər üçün yazdığım “Azərbaycan dilini müstəqil öyrənin” kitabı isə artıq nəşriyyatdadır. 2024-cü ildə burada nəşr olunacaq.

***– Şahnaz xanım, bir məqam mənim üçün maraqlıdır. İndi qalib Azərbaycanın vətəndaşı kimi bizi Sankt-***



***Peterburqda təmsil edənlər sırasındasınız. Məğlub və Qalib – bu iki duyğunu necə dilə gətirərdiniz?***

– Mən məğlub ölkənin vətəndaşı olmaq acısını da, qalib ölkənin nümayəndəsi olmaq qürurunu da yaşamışam, yaşayıram. Öncə, bu qüruru mənə yaşadan hər kəsə minnətdarlığımı bildirir, şəhidlərimizə rəhmət diləyir, onların ruhları qarşısında baş əyirəm. Qələbə bizim qəddimizi dikəltdi, başımızı uca etdi. Yad ölkədə nüfuzumuzu qaldırdı. Əslində, Peterburqun əhalisi mədənidir, mənim çevrəm də akademik çevrədir. Amma buna baxmayaraq, 2020-ci ildən sonra mənə münasibətdə dəyişiklik, istiləşmə, daha çox hörmət gördüm. Azərbaycanda yaşayanlar bunu həyatlarında necə hiss edir, bilmirəm, amma mən qürbətdə yaşayan biri kimi, bunun həyatıma təsirini görürəm, hiss edirəm.

***– Qərib olmağın mənfi və müsbət tərəfi varmı?***

– Var. Mənfi tərəfi odur ki, harada olursan ol, yaşadığın ölkədə hansı mövqedə olursan ol, sən gəlməsən, yadsan. Bunu bir gün sənə deyəcəklər, hiss etdirəcəklər. Qürbətdə olmağın başqa bir yanı da istədiyin vaxt əlinin doğmalarına çatmamasıdır. Müsbət tərəfinə gəlincə, bilmirəm bunu müsbət adlandırım, ya yox. Amma əgər Vətəndən uzaqdasansa, demək, mənsub olduğun xalqı, milləti təmsil edirsən. Sənə baxıb millətinə, ölkənə dəyər, qiymət verirlər, sənin timsalında tanıyırlar. Bu, məsuliyyətdir. Bunu dərk etmək lazımdır. Məncə, hər kəsin missiyası var. Bunun fərqində olmaq lazımdır. Məsələn, niyə məhz Peterburqdayam? Bakıda yox, buradayamsa, bunun səbəbi nədir və burada olmağımın mənə, mənsub olduğum xalqa nə xeyri var? Qazandığımla itirdiyimin mütənasibliyi necədir? Qürbətdə olanlar bunu dərindən düşünməlidirlər, məncə. Harada olmağımdan asılı olmayaraq, Vətən mənim içimdədir, ürəyimdədir.

***– Gələcəkdə hansı işlərlə Vətənə, xalqa xidmət etməyi düşünürsünüz? Planlarınız, layihələriniz varmı?***

– Təbii, fəaliyyətimə davam edirəm. Yeni ildə kitabxana ilə əməkdaşlığımı yenə davam etdirəcəyəm. Bir neçə ciddi layihəm var. Bu barədə artıq Peterburqda lazım olan şəxslərlə danışmışam. Layihələrin bəzisini 2024-cü ildə, bəzisini 2025-ci ildə həyata keçirməyi planlaşdırıram, Azərbaycan üçün çox önəmli layihələrdir. Təbii ki, mənə dövlətimin dəstəyi çox önəmlidir, lazımdır. Çünki indi nəzərdə tutduğum işlər Azərbaycan üçün çox əhəmiyyətli və miqyası böyük olan layihələrdir.

Bildiyiniz kimi, Rusiyada çox sayda azərbaycanlı yaşayır. Sankt-Peterburqda da onların sayı kifayət qədərdir. Ona görə də Peterburqda bir neçə diaspor təşkilatı fəaliyyət göstərir. Məsələn, Vaqif Məmişovun başçılıq etdiyi “Milli mədəni muxtariyyət”, Xeyransa Mirzəyevanın başçılıq etdiyi “Çinar”, İdris Qəhrəmanovun “Naxçıvan” təşkilatı. Mən hər biri ilə əməkdaşlıq edir, tədbirlərdə iştirak edirəm.

***– Şahnaz xanım, həmsöhbət olduğunuz üçün sizə minnətdarlığımı bildirir, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.***

– Çox sağ olun! Mən də sizə müsahibəyə, dolğun suallara görə təşəkkür edirəm! Xalqımızı və dünyada yaşayan bütün soydaşlarımızı 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm. Bir olaq, həmrəy olaq!

**Təranə ARİFQIZI**
***Yazıçı-publisist, Naxçıvan Radiosunun əməkdaşı***



## *“Ulu Öndər Heydər Əliyevin izi ilə”* Naxçıvan turu başa çatıb



*Azərbaycan Dövlət Turizm Agentliyinin, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində keçirilən silsilə tədbirlərin davamı olaraq media və turizm sənayesi nümayəndələrinin iştirakı ilə keçirilən “Ulu Öndər Heydər Əliyevin izi ilə” Naxçıvan turu başa çatıb.*

Azərbaycan Dövlət Turizm Agentliyinin, Azərbaycan Turizm Bürosunun, media nümayəndələrinin, turizm sənayesi nümayəndələrinin, eləcə də Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşlarının birgə iştirakı ilə keçirilən mediaturun son günündə qonaqlar əvvəlcə Ulu Öndər Heydər Əliyevin tapşırığı və himayəsi ilə 1998-ci ildə abadlıq və yenidənqurma işlərinin aparıldığı “Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksini ziyarət ediblər. Ardınca mediatur iştirakçıları Ümummilli Liderin təşəbbüsü ilə 1977-ci ildə “qoruq şəhər” elan edilmiş Ordubad şəhərinə səfər ediblər. Burada Qeysəriyyə binası və Ordubad Cümə məscidinə tanışlıq turu təşkil olunub. Daha sonra iştirakçılar şəhərin Sərşəhər meydanında olublar.







Qeyd edək ki, ikigünlük səfər çərçivəsində iştirakçıların böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məqbərəsinə, Heydər Əliyevin 1938-1939-cu illərdə təhsil aldığı Pedaqoji Texnikumun binasına, tarixən Zaviyə-mədrəsə binası kimi tanınan, Ümummilli Liderin 1930-cu illərdə şahmat, musiqi və dram dərnəklərinin üzvü olduğu Naxçıvan Şəhər Pionerlər Evinin binasına, o cümlədən “Xan Sarayı” Dövlət-Tarix Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə, Naxçıvan Dövlət Milli Dram Teatrına tanışlıq turu təşkil edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

# Yeni nəfəs, yeni ruh

## Əsl bayram ovqatı yaşayır

## ULU DİYAR





Mövsüm qış olsa da, Naxçıvan həmişəki kimi al-əlvandır. Yeni ili qarşılamaq üçün doğma diyar artıq bayram libasını geyinib. Şəhərin hər yerində yeni il təmtərağı insanlara əsl bayram əhvali-ruhiyyəsi yaşadır. Zövqlə bəzənən Yeni il ağacları Naxçıvanın gözəlliyinə gözəllik qatır. Şəhərin mərkəzində ucalan rəngarəng zəfər yolkası isə sanki 30 il bundan öncə başlanan birliyimizin, bütövlüyümüzün rəmzini ifadə edir. Yolkanın ətrafında əsl bayram ab-havası duyulur.

Son günlər Naxçıvana yolu düşən hər kəs özünü festivallar şəhərindəki kimi hiss edir. Haqlıdırlar! Çünki Naxçıvanda son zamanlar keçirilən bir-birindən maraqlı festivallar bunu deməyə əsas verir. Eləcə də 25 dekabr-7 yanvar tarixlərdə Naxçıvanda ilk dəfə keçirilən “Snowfest – qış festivalı”.




Naxçıvan daha bir ili yenilənmə və tərəqqi ili kimi geridə qoyur. Doğma diyarımızın inkişafı naminə atılan addımlar hər birimizi qəlbən sevindirir. Sözsüz ki, bu uğurların əsasında qüdrətli Azərbaycan dövlətinin Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti dayanır. Ölkə rəhbərinin apardığı məqsədyönlü siyasət nəticəsində, bütün sahələrin inkişafına göstərdiyi diqqət sayəsində Naxçıvan da 2023-cü ili uğurla başa vurur. Ölkə başçısının Naxçıvanın çiçəklənməsi uğrunda ən mühüm qərarlarından biri də 2022-ci ilin elə bu ayında muxtar respublikada yeni idarəetmə sisteminin formalaşdırılması istiqamətində atdığı addım idi. Naxçıvanda müasir idarəetmə mexanizminin tətbiq olunması ilə 2023-cü ilin ulu diyarımıza daha böyük uğurlar gətirdiyinin şahidiyik. Elə buna görə də hər birimiz daha xoş əhvali-ruhiyyə ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili qarşılayırıq. Şəhərimiz əsl bayram ovqatı yaşayır. İnsanların üzü gülür bu ovqatdan...



Biz artıq 3 ildir ki, həmrəylik günü və yeni il bayramını qalib xalq, qalib ölkə kimi qeyd edirik. Qalibiyyətimiz və zəfərimiz üçün isə həmrəyliyimizə, birliyimizə borcluyuq. Əminik ki, 44 gündə 30 ilin işğalına son qoyan bütöv Azərbaycanı qarşıda daha böyük uğurlar gözləyir. İnanırıq ki, dövlətimizin qətiyyəti, xalqımızın iradəsi, qüdrətli iqtisadiyyat, güclü ordu və xalq birliyi, bir amal uğrunda həmrəylik, mübarizlik əhvali-ruhiyyəsi sayəsində 2024-cü ildə ölkəmiz diplomatiya arenasında növbəti zəfər sevincini yaşayacaq, səs-sədamız Qərbi Azərbaycandan duyulacaq!

✍ **Gülcamal TAHİROVA**






## Naxçıvan Dövlət Universitetində muğam axşamı keçirilib



Naxçıvan Dövlət Universitetinin Konservatoriyası və Musiqi Kollecinin birgə təşkilatçılığı ilə “Rast muğam dəsgahı” adlı muğam konserti keçirilib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Etiqad Seyidov muğam haqqında məlumat verərək bildirib ki, tədbirin əsas məqsədi milli sərvətimiz olan muğamlarımızı nümayiş etdirmək və yaşatmaqdır.

Konsertin bədii rəhbəri Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, Xalq çalğı alətləri kafedrasının baş müəllimi Aqib Seyidov, muğam dəsgahını müşayiət edən ansamblın üzvləri Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Etiqad Seyidov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, Xalq çalğı alətləri kafedrasının baş müəllimi Aqib Seyidov, Xalq çalğı alətləri ixtisasının tələbələri, xanəndələr isə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, müəllim Ruhiyyə Hüseynova, Musiqi Kollecinin xanəndələri və Vokal sənəti ixtisası üzrə tələbələri olublar.

Konsert tədbir iştirakçıları tərəfindən maraqla dinlənilib.

Universitetin rektoru Elbrus İsayev bu kimi tədbirləri İncəsənət fakültəsinin inkişaf yolunun bir nümunəsi kimi qiymətləndirib. Qeyd edilib ki, muğama göstərilən dövlət qayğısı gənclərin bu sahəyə maraq göstərməsinə, sonradan isə muğam ifaçılığı ilə məşğul olmasına şərait yaradıb. Bildirilib ki, Azərbaycanda muğam sənətinin yeni inkişaf mərhələsinə qədəm qoymasının səbəbi məhz muğam ifaçılarının, ustad xanəndələrin dövlətdən ciddi dəstək alması ilə bağlıdır. Universitetdə də muğam ifaçılığı sarıdan qazanılan təcrübəni yüksək qiymətləndirən rektor tədbirdə əməyi keçən hər kəsə öz təşəkkürünü bildirib.

***Naxçıvan Dövlət Universitetinin Media və ictimaiyyətlə əlaqələr bölməsi***

## Budəfəki voleybol yarışı daha gərgin mübarizə vəd edir



İlham Əliyev adına Olimpiya İdman Kompleksində “Heydər Əliyev İli” çərçivəsində Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş kişilər arasında voleybol üzrə muxtar respublika turnirinə start verilib. Muxtar respublikada voleybolun inkişafı, güclü idmançıların müəyyənləşdirilərək Naxçıvan yığma komandasına cəlbinə hədəflənən yarışda 8 komanda iki qrupda dairəvi sistem üzrə mübarizə aparır. Qrup mərhələsindən sonra 4 komanda pley-offda mübarizəni davam etdirəcək.

Ölkənin müxtəlif klublarında karyerasını davam etdirən 20 yaşadək naxçıvanlı voleybolçuların muxtar respublika üzrə qeydiyyatda olduqları rayon və ya şəhərləri təmsil edən komandaların heyətinə çıxış imkanı yaradılıb. Bu amil yarışın daha gərgin və maraqlı keçəcəyinə zəmin yaradır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Məmmədov Hidayət Eyvaz oğlunun adına olan 67-BJ-146 dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Xanlıqlar kənd sakini Salmanov Sevindik Qurban oğluna məxsus Xanlıqlar kəndində yerləşən fərdi yaşayış evinin 102013004008-10301 reyestr nömrəli texniki pasportu və çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 746